PARADIGMA, No.1, 2026, səh.67-72
https://doi.org/10.30546/30015.2026.01.01.2046

# QAÇQIN VƏ MƏCBURİ KÖÇKÜN ANLAYIŞI VƏ ONLARA BƏRABƏR TUTULAN ŞƏXSLƏRİN SOSİAL-HÜQUQİ STATUSU

**T.F. Əzizova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: turkayazizova@gmail.com

**Xülasə.** Qaçqın və məcburi köçkün anlayışları hüquqi və sosial baxımdan fərqli, lakin bir-biri ilə sıx bağlı kateqoriyalardır. Azərbaycan Respublikasının qanunvericiliyi və beynəlxalq normalar çərçivəsində onların sosial-hüquqi statusu müəyyən edilmişdir. Məqalədə qaçqın və məcburi köçkün anlayışı, onların sosial-hüquqi təminatı və Dövlət Proqramları çərçivəsində həyata keçirilən tədbirlər təhlil olunmuşdur.

**Açar sözlər:** Qaçqınlar, məcburi köçkünlər, sosial-hüquqi status, hüquqi təminat, dövlət siyasəti, beynəlxalq normalar.

## Giriş

Qaçqın və məcburi köçkün anlayışları hüquqi və sosial baxımdan fərqli, lakin bir-biri ilə sıx əlaqəli kateqoriyalardır. Qaçqın anlayışı irqi, dini, siyasi və digər əsaslarla təqib qorxusu səbəbindən öz ölkəsini tərk edərək başqa ölkədə sığınacaq axtaran şəxsləri ifadə edir. Məcburi köçkünlər isə oxşar təhlükələr nəticəsində öz ölkəsi daxilində daimi yaşayış yerini tərk etməyə məcbur olan şəxslərdir. Azərbaycan Respublikasının milli qanunvericiliyi və beynəlxalq hüquqi normalar bu kateqoriyalara aid şəxslərin sosial-hüquqi statusunu, hüquq və təminat mexanizmlərini müəyyən edir. Məqalənin məqsədi qaçqınlar və məcburi köçkün anlayışlarının hüquqi məzmununu, onların sosial-hüquqi statusunu milli qanunvericilik və beynəlxalq hüquq normaları əsasında müqayisəli şəkildə təhlil etməkdir. Tədqiqatın elmi yeniliyi qaçqın və məcburi köçkün terminlərinin yalnız nəzəri baxımdan deyil, həm də onların real tətbiq mexanizmləri prizmasından kompleks şəkildə araşdırılmasındadır. Tədqiqat zamanı keyfiyyət və miqdar yönümlü metodlardan istifadə olunmuş, mövzu ilə bağlı milli qanunvericilik aktları və beynəlxalq hüquqi sənədlər müqayisəli şəkildə təhlil edilmişdir. Bu yanaşma qaçqın və məcburi köçkünlərin hüquqi statusunun formalaşma mexanizmlərini və sosial təminat sistemini müəyyən etməyə imkan vermişdir.

## Qaçqın və məcburi köçkün anlayışı

Qaçqınlar yaşadıqları ölkədə təqib, zorakılıq, insan hüquqlarının kobud şəkildə pozulması və ya müharibə kimi təhlükələr səbəbindən öz ölkələrini tərk edərək başqa bir dövlətin ərazisinə sığınan şəxslərdir. Onlar beynəlxalq sərhədləri aşdıqlarına görə beynəlxalq hüquq çərçivəsində qorunma, sığınacaq və müvafiq hüquqi status əldə etmək üçün müraciət edirlər. Məcburi köçkünlər isə müharibə, zorakılıq, təbii fəlakət və digər təhlükələr nəticəsində öz ölkələrinin daxilində daimi yaşayış yerlərini tərk edərək daha təhlükəsiz bölgələrdə məskunlaşan

şəxslərdir. Bu iki anlayış arasındakı əsas fərq onların yerləşdikləri ərazi və hüquqi statusla bağlıdır.

Məcburi köçkünlərin müdafiəsi və hüquqlarının təmin edilməsi üçün əsas məsuliyyət milli dövlət orqanlarının üzərinə düşür. Dövlət onların təhlükəsizliyini, sosial təminatını və hüquqlarını qorumaq məqsədilə müvafiq tədbirlər görməli və mövcud qanunvericiliyin icrasını təmin etməlidir. Məcburi köçkünlərin ölkə daxilində köçürülməsi daxili köçürülmə prosesi kimi qiymətləndirilir və bu zaman onların hüquqlarının qorunması ilə yanaşı, milli və mədəni xüsusiyyətlərinin saxlanılması da vacib hesab olunur. Yeni məskunlaşma mühitində məcburi köçkünlərin sosial inteqrasiyası təmin edilməli, eyni zamanda onların milli kimliyi və mənsubiyyət dəyərləri qorunmalıdır.

**Qaçqın və məcburi köçkünlərin sosial-hüquqi statusu**

Azərbaycanda qaçqın və məcburi köçkünlərin inzibati-hüquqi statusunun sosial təminatının düzgün təşkil olunması üçün sosial sahədə müasirləşmə proseslərini nəzərə almaq lazımdır, çünki bu proseslər dövlətin sosial siyasətinə verilən böyük önəmi əks etdirir. Demokratik dövlət quruluşunun formalaşmasında hüququn mühüm rol oynadığını nəzərə alaraq, AR Konstitusiyasında sosial, irqi, milli, dini bərabərlik prinsipləri öz əksini tapır [1, s.10].

Azərbaycan Respublikasında məcburi köçkün probleminin meydana gəlməsi isə XX əsrin 80-ci illərinə təsadüf edir. 1988-1992-ci illərdə Ermənistanda yaşayan azərbaycanlılara qarşı böyük ayrı-seçkilik edilmişdir. Beləliklə, Ermənistanda yaşayan 250.000 azərbaycanlı öz doğma yurd-yuvalarını tərk etmək məcburiyyətində qalmışdır. 1988-ci ildən Ermənistan silahlı qüvvələrinin Azərbaycana hərbi təcavüzü başlamışdır. Növbəti illərdə Dağlıq Qarabağ və ona bitişik olan yeddi rayon olmaqla torpaqlarımızın 20%-i işğal olunmuşdur. Nəticədə 700.000-ə yaxın azərbaycanlı öz daimi yaşayış ərazilərindən kənar düşmüş və ölkənin müxtəlif şəhər və rayonlarında, 1600-dən çox sıx məntəqədə müvəqqəti məskunlaşmışlar [3, s. 19-31]. Sadəcə keçmiş Dağlıq Qarabağ ərazisindən deyil, həmsərhəd olan digər rayonlardan və onların kəndlərindən təhlükəsizlik məqsədilə həmvətənlərimiz müxtəlif ərazilərə köçürülmüşdür.

Bütün bu hərbi təcavüzlər nəticəsində 20.000-dən çox azərbaycanlı öz həyatını itirmiş, 100.000 nəfər yaralanmış, 50.000 şəxs isə müxtəlif dərəcəli xəsarətlər almışdır.

Bunun nəticəsi olaraq, məcburi köçkünlər bir çox fiziki, sosial, psixoloji və s. tip problemlərlə rastlaşmışdırlar. Həmin problemlərin həll olunması üçün əməli addımların təməli Ümummilli Lider, ulu öndər Heydər Əliyev tərəfindən atılmışdır. 1999-cu ildə Ümummilli Lider Birləşmiş Millətlər Təşkilatının Dünya Qida Proqramı Təşkilatının Baş Qərargahı ilə

əlaqə yaradaraq müstəsna hal kimi bu qurumun Azərbaycanda fəaliyyətini 2005-ci llədək davam etdirməsinə nail olmuşdur [5].

Qaçqın və məcburi köçkünlər barədə qəbul olunan AR-ın Qanunu qaçqın statusu almaq üçün müraciət etmiş və ya bu statusu itirmiş şəxslərin hüquqlarına təminat verir [6, s.1].

Dövlətdə qeydiyyata alınan qaçqınların, məcburi köçkünlərin, qaçqın statusunu almaq istəyən adamların sosial problemlərinin bilavasitə həlli və tək bir mərkəzləşmiş qaydada idarə olunması, nəzarətdə saxlanması üçün 1998-ci ilin noyabr ayında AR Nazirlər Kabinetinin strukturunda baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri vəzifələri yaradılmışdır.

Eyni zamanda 1998-ci il tarixində AR vətəndaşlığı haqqında, 1999-cu ildə Qaçqınların və məcburi köçkünlərin statusu barəsində, məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında qanunlar qəbul olunmuşdur.

Həmçinin Azərbaycan Respublikasının Dövlət Başçısının 1998-ci il 17 sentyabrda imzalanan 895 saylı sərəncamına uyğun olaraq Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramı qəbul olunmuşdur.

Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün ayrılan maliyyənin miqdarı 1993-2003-cü illər daxilində 90 dəfə, qida üçün 60 dəfə, su, işıq, elektrik və bu kimi başqa xərclər üçün 120 dəfə artırılmışdır [4].

Qaçqın və məcburi köçkünlər kommunal xərclərin və digər xidmətlərin ödənişlərindən, dövlət ali və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla oxuyan məcburi köçkün tələbələr təhsil haqqı ödənişindən azad edilmişdir.

2003-cü ildən başlayaraq Prezident İlham Əliyev Ümumilli Liderin uğurlu siyasi kursunu davam etdirmiş, bu istiqamətdə ardıcıl, müvafiq tədbirlər həyata keçirmişdir. Yuxarıda qeyd olunduğu kimi çadır düşərgələrinin ləğvinə başlanmış, 12 çadır düşərgəsinin 5-i 2003-cü ildə, 7-si isə növbəti 4 ildə ləğv olunmuşdur. 2003-cü ildə prezident seçkilərində bir az əvvəl ölkəmizdə bir dənə də olsun çadır düşərgəsi qalmayacağını bildirən İlham Əliyev bu vədi sonrakı 4 ildə yerinə yetirmişdir. 24 dekabr 2007-ci ildə son çadır düşərgələri də ləğv olunmuşdur [4].

Bu illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı, qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün böyük imkanlar yaradılmış, onların mənzil-məişət problemlərinin aradan qaldırılması, məşğulluğun çoxaldılması üzrə Dövlət Proqramının daha sonra adı çəkilən sənədə 31 oktyabr 2007-ci il, 21 fevral 2011-ci il tarixli sərəncamlarla təsdiq olunmuş əlavələrin icrasında müvəffəqiyyətli işlər görülmüşdür [2].

Azərbaycan Respublikasında müvafiq icra hakimiyyəti orqanları qaçqın və məcburi köçkün statusu almaq üçün müraciətləri nəzərdən keçirir və qəbul edilən qərarlar əsasında şəxsə müvafiq status verilir. Qaçqın statusu üçün ərizə ilə müraciət etmiş şəxslər haqqında qərar üç ay müddətində qəbul edilir, məcburi köçkün statusu üçün qeydiyyatdan keçmiş şəxslər barəsində qərar isə bir ay müddətində verilir.

Qaçqın və ya məcburi köçkün statusu almış şəxsə əvvəlcədən təyin olunmuş formada aşağıdakı təminat verilir:

1) 3 ay ərzində peşəyə və ya yaşayış yerinə malik olana qədər xüsusi təyin olunmuş yerlərdə mənzil kirayəsi ödəmədən yaşamaq;

2) hər hansı ödəniş etmədən qısamüddətli yaşayış yerində məskunlaşmaq;

3) qısamüddətli olaraq yaşanılan ərazidə yaşlıların, azyaşlıların, gəliri az olan ailələrin, insanların lazım olan ödəniş etmədən dərman yardımı, güzəştlə gündəlik lazımi ərzaqları alması;

4) ailənin azyaşlı üzvlərinin məktəbəqədər tərbiyə, yeniyetmə və gənclərin onlara uyğun olan təhsil müəssisələrində təlim alması;

5) mövcud ərazilərdə daimi məskunlaşanlarla eyni qaydada ərzaqlarla təmin olunmaq;

6) ölkənin təyini ilə birdəfəlik, eyni zamanda başqa yardımları almaq;

7) əsas sənədlərin olmadığı halda da, daha sonra həmin sənədlərin təşkil olunması şərtinə əsasən minimal məbləğdə təqaüd və müavinətlərdən yararlanmaq;

8) ilk öncə kimsəsi olmayan təqaüd alan şəxsləri eyni zamanda əmək qabiliyyəti olmayan sağlamlıq imkanları məhdud insanları onlar üçün təyin edilmiş sosial təminat müəssisələrində məskunlaşmalarını təmin etmək;

9) bu qanunla təyin edilmiş vaxt ərzində qaçqın və ya məcburi köçkün statusuna yiyələnmək;

10) 5 illik vaxt ərzində ev haqqı, kommunal xidmətləri (istehsal-təsərrüfat fəaliyyətilə bağlı istifadə xərcləri istisna olmaqla) xərcinin ödənişindən azad olunmaq;

11) qanunvericiliyə əsasən təyin edilən qaydada vergi ilə bağlı güzəştlərdən yararlanmaq;

12) çəkilən maddi, həmçinin başqa ziyanların qarşılığını almaq üçün müraciət etmək;

13) 3 ay ərzində müəyyən dövlət orqanlarının onlara təklif etdiyi hər hansı bir mənzil seçmək [6].

Azərbaycan Respublikasının Konstitusiyasında və başqa qanunvericilik aktlarında əgər fərqli bir hadisə baş verməyibsə, qaçqınlar AR vətəndaşlarına aid olan hüquq və azadlıqlarından istifadə edə bilər, onlarla eyni vəzifələri daşıya bilər[1].

Beləliklə, qaçqın və məcburi köçkünlərin sosial-hüquqi statusunun təmin olunması

haqqında fikirlərə əsaslanaraq, bu nəticələrə gəlmək olar:

1) Azərbaycan Respublikasında qaçqınlar və məcburi köçkünlər üçün sosial-hüquqi statusun təminatları dedikdə dövlətin həmin şəxslərin hüquqlarını müdafiə edən və onların sosial vəziyyətini yaxşılaşdırmaq məqsədilə müəyyən etdiyi hüquq və qoruyucu mexanizmlər başa düşülür.

2) Onların, o cümlədən onlara bərabər tutulan şəxslərin təminatları müxtəlif sahələrə aiddir və fərqli istiqamətlərə bölünə bilər; bu təminatlar arasında iqtisadi dəstək**,** sosial müdafiə**,** hüquqi qorunma və təşkilati tədbirlər yer alır. Belə təminatlar qaçqın və məcburi köçkünlərin hüquqlarının müdafiəsi, sosial rifahının yaxşılaşdırılması və həyat şəraitinin normallaşdırılması üçün nəzərdə tutulur və müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

3) Bu təminatlar qaçqın və məcburi köçkünlərin hüquq və azadlıqlarının reallaşdırılmasını təmin etməklə yanaşı, dövlət tərəfindən müəyyən edilmiş vəzifə və öhdəliklərin icrasına xidmət edən mexanizmləri də əhatə edir.

**Nəticə**

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin sosial-hüquqi statusunun təmin olunması dövlət tərəfindən hüquqi, sosial və iqtisadi tədbirlərin kompleks şəkildə həyata keçirilməsi yolu ilə reallaşdırılır. Bu tədbirlər yalnız onların həyat şəraitinin yaxşılaşdırılmasına və təhlükəsizliyinin təmin edilməsinə deyil, eyni zamanda qanunla müəyyən edilmiş hüquq və azadlıqlarının reallaşdırılmasına, sosial inteqrasiyanın gücləndirilməsinə və cəmiyyətin bütün sahələrində bərabər imkanların yaradılmasına xidmət edir.

Milli qanunvericilik, o cümlədən Qaçqınların və məcburi köçkünlərin statusu haqqında Azərbaycan Respublikasının Qanunu, qaçqın və məcburi köçkünlərin hüquqi statusunu təsbit edir, onların qeydiyyatı və sənədləşdirilməsi prosedurlarını müəyyənləşdirir, həmçinin bu şəxslərə yaşayış, sosial xidmətlər, təhsil, səhiyyə, vergi və kommunal güzəştlər, eləcə də kompensasiya və hüquqi müdafiə ilə bağlı müxtəlif təminatların verilməsini nəzərdə tutur.

Beləliklə, Azərbaycanda qaçqın və məcburi köçkünlərin sosial-hüquqi statusunun təminatı yalnız hüquqi normativlərlə məhdudlaşmır, həm də onların sosial təhlükəsizliyinin, rifahının və cəmiyyətə tam inteqrasiyasının təmin edilməsi məqsədilə sistemli dövlət dəstəyi mexanizmlərinin formalaşdırılmasını əhatə edir. Bu yanaşma həm hüquqi ədalətin, həm də sosial bərabərliyin qorunmasına mühüm töhfə verir.

**Ədəbiyyat siyahısı**

1. Azərbaycan Respublikası. (2009). Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun

2. Azərbaycan Respublikası Prezidenti. (2007, 31 oktyabr). Sərəncam. https://e-qanun.az/framework/6261
3. Əhmədov E. (2015). Ermənistanın Azərbaycana təcavüzü: Beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti (III kitab). Bakı: Elmin İnkişafı Fondu.
4. Həsənov Ə. (2009, 18 iyun). Qaçqınların və məcburi köçkünlərin sosial problemlərinin həlli dövlətin prioritet məsələlərindəndir. Azərbaycan qəzeti, s. 3.
5. İnsan hüquqları kontekstində qaçqın və məcburi köçkün problemi. (2017, 21 noyabr). Palitra, №212, s.13.
6. Azərbaycan Respublikası. (2005). Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında qanun. Bakı: Borçalı NPM.
7. Global Protection Cluster Working Group. (n.d.). Handbook for the protection of internally displaced persons.

## THE CONCEPT OF REFUGEES AND INTERNALLY DISPLACED PERSONS AND THE SOCIAL-LEGAL STATUS OF PERSONS EQUATED TO THEM

**T.F. Azizova**
Azerbaijan University, Ceyhun Hajibeyli, 71, Baku, Azerbaijan

**Abstract.** Refugee and internally displaced persons concepts are different yet interconnected categories in legal and social contexts. Within the framework of the legislation of the Republic of Azerbaijan and international norms, the social and legal status of these individuals has been defined. The article analyses the concept of refugees and internally displaced persons and their social-legal status.

**Keywords:** Refugees, internally displaced persons (IDPs), social legal status, legal protection, state policy, international norms.